AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

NİZAMİ GƏNCƏVİNİN "XOSROV VƏ ŞİRİN" ƏSƏRİ FƏXRƏDDİN YAQUB İBN MƏHƏMMƏD FƏXRİNİN TƏRCÜMƏSİNDƏ: ORİJİNALLIQ VƏ BƏDİİLİK

İxtisas: 5717.01 – "Türk xalqları ədəbiyyatı"

Elm sahəsi: Filologiya

İddiaçı: **Samirə Əmiraslan qızı Əliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Nizamişünaslıq şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor
Nüşabə Həmid qızı Araslı

Rəsmi opponentlər: Filologiya elmləri doktoru, professor
Qəzənfər Məmməd oğlu Paşayev

Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
Aygün Məhərrəm qızı Yusubova

Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
Lamiyə Sabir qızı Rəhimova

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.05 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Filologiya elmləri doktoru, dosent
Mehman Ağasəlim oğlu Həsənli

Dissertasiya şurasının elmi katibi: Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
Töhfə Məmmədağa qızı Talıbova

Elmi seminarın sədri: Filologiya elmləri doktoru, dosent
Eşqanə Akif qızı Babayeva

2

TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. İlk örnəkləri qədim folklor nümunələri olub, yazılı tarixi isə əldə edilən əsərlərə görə hələ ki XIII yüzillikdən başlayan türk ədəbiyyatı insanı ucaldan əməllər, onun dəyəri, həyata gəlmə səbəbi və missiyası, mənəvi inkişaf və tərəqqi, insanlığa xidmət üçün çalışmaq və s. kimi bəşəri mövzu və ideyaların ən müxtəlif məzmunlarda, çeşidli biçimlərdə təzahür etdiyi zəngin bir xəzinədir. Ədəbiyyat tariximizin incələnməsi göstərir ki, hər yüzillikdə o yeni bir özəllik kəsb edərək inkişafının yeni, daha üstün pilləsinə qədəm qoymuşdur. Bu baxımdan XIV-XV yüzilliklər türk ədəbiyyatı tarixində xüsusi bir mərhələ kimi fərqləndirilə bilər. Bu dövrlərdə türk ədəbiyyatında Qazi Bürhanəddinin üstün zəka qabiliyyəti, İmadəddin Nəsiminin üsyankarlığı ilə seçilən, Şah İsmayıl Xətainin saf ana dili çeşməsindən süzülüb gələn poeziyası şeirə, sənətə yeni bir yön, yeni təravət vermişdir. Bu yüzillikdə poeziyamızı fərqləndirən ən ümdə xüsusiyyət isə anadilli şeirin üstünlüyü ələ almasıdır.

XIV-XV əsrlər türk ədəbiyyatı yalnız orijinal poetik yaradıcılıq nümunələri ilə deyil, həmçinin tərcümə əsərlərilə də zəngindir. Bu dövrdə klassik Şərq poeziyasının bir sıra tanınmış nümayəndələrinin əsərlərinin türk dilinə tərcümə edilməsi bədii tərcümənin artıq formalaşmış ədəbi ənənə kimi qəbul olunduğunu göstərir.

Tərcümə əsərləri içərisində XII əsr Azərbaycan şairi Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərinin dönəminin tanınmış söz ustaları tərəfindən həyata keçirilmiş tərcümələri xüsusi yer tutur. Nizami çoxsahəli və zəngin məlumatları əxz edən, orijinal məzmuna, fərqli süjet xətti və kompozisiya quruluşuna malik əsərləri ilə Şərq ədəbiyyatında yeni bir ədəbi məktəbin əsasını qoyduğu kimi, şairin əsərlərinin orta əsrlərdən başlayan tərcümələri də bu sahədəki ənənə və ehkamlara yenilik gətirmiş, bədii tərcümə sənətinin inkişafına, özünəməxsus yanaşma və üslubun formalaşmasına təkan vermişdir. Belə ki, Azərbaycan şairinin yüksək sənətkarlıq nümunələri olan əsərləri hələ orta əsrlərdən elm və sənət bilicilərinin diqqətini cəlb etmiş, dövrün müqtədir sənətkarları kimi sıravi şeir həvəskarları, o

cümlədən şeiri, sənəti və şairləri himayə edən hökmdarlar da Nizami "Xəmsə"sinə daxil olan ölməz inciləri öz dillərində oxumağa həvəs göstərmişlər.

Nizami əsərlərinin tərcümə tarixinə nəzər saldıqda şairin bədii örnəkləri içərisində daha çox "Xosrov və Şirin" məsnəvisinin diqqət mərkəzində olduğunu görürük. Bu da, çox güman ki, həm əsərin məzmununun Şərqdə məşhur olması ilə, həm də şairin özünün də yazdığı kimi, *"hər kəsin həvəsnaməyə meyil göstərməsi"*[1] ilə bağlı olmuşdur. Şairin əsərlərinin tərcümə variantlarının incələnməsi göstərir ki, məhz "Xosrov və Şirin" əsərinin türk dilinə tərcüməsi ilə türk ədəbiyyatında yeni poetik meyillər formalaşmış və tərcümə müstəqil bir bədii yaradıclıq sahəsi kimi inkişafında irəliyə doğru çox əhəmiyyətli addımlar atmışdır.

Azərbaycan milli müstəqillik əldə etdikdən sonra türk xalqları ədəbiyyatlarının öyrənilməsinə maraq əhəmiyyətli dərəcədə artmışdır. Xüsusilə orta əsrlərə aid, müasir tərcümə "qanunları" ilə müqayisədə "sərbəst" və yaradıcı tərcümə örnəkləri adlandıra biləcəyimiz əsərlərin orijinal qaynaqlarla müqayisəli şəkildə araşdırılmasına meylin güclənməsi bu sahədə yeni tədqiqat istiqamətlərinin formalaşmasına şərait yaratmışdır. Bu tərcümələr sırasında Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərinin XIV əsrdə Aydınoğullar sarayında yazıb-yaratmış şair Fəxrəddin Yaqub ibn Məhəmməd Fəxri tərəfindən həyata keçirilmiş tərcüməsi həm ölməz Nizami qələminin üslubunu qoruyub saxlaması, həm də ilkin qaynağa kreativ yanaşması, eləcə də bədii sənətkarlığı ilə xüsusi yer tutur. Məhz orta əsrlər tərcümə sənətinin özünəməxsus xüsusiyyətlərinin bir daha və fərqli bədii nümunə üzərində incələnməsinin əhəmiyyəti baxımından tədqiq edilən mövzu ədəbiyyatşünaslığımız üçün aktualdır və orta əsrlər tərcümə yaradıcılığının bir sıra problemlərinin aydınlaşdırılması baxımından gərəkli hesab edilə bilər. Digər tərəfdən dahi Azərbaycan şairinin yaradıcılığının mövzu və süjetlərinin çox geniş coğrafiyada

[1]Gəncəvi, N. Xosrov və Şirin / tərc. ed. H.Məmmədzadə. – Bakı: Elm, – 1981. – s. 48.

yayılması və orta əsr şairlərinin, xüsusilə də türk ədəbiyyatı nümayəndələrinin əsərlərində davam və inkişaf etdirilməsində nəzirə və cavablarla yanaşı, tərcümə əsərlərinin də oynadığı rolun əhəmiyyət dərəcəsinin aydınlaşdırılması baxımından mövzu aktualdır.

Mövzunun aktuallığını şərtləndirən məsələlərdən biri də budur ki, Nizami Gəncəvinin ilk tərcüməçilərindən olan Fəxrinin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında yetərincə araşdırılmamış və sistemli elmi tədqiqata cəlb edilməmişdir. "Xosrov və Şirin" məsnəvisinin türk dillərinə tərcümələri haqqında bir sıra qiymətli elmi-tədqiqat əsərləri, məqalə və monoqrafiyalar yazıldığı halda, Fəxrinin həyata keçirdiyi tərcümə ayrıca tədqiqat obyekti olmamışdır. Halbuki Nizaminin "Xosrov və Şirin" əsəri ilə Fəxrinin tərcüməsinin müqayisəli təhlilinə böyük ehtiyac vardır. XIV əsr türk ədəbiyyatında xüsusi mövqe tutan söz sənətkarının həyat və yaradıcılığının tədqiqi, orta əsr türk tərcümə ədəbiyyatının ideya-bədii istiqamətlərinin, dil-üslub və sənətkarlıq xüsusiyyətlərinin araşdırılması baxımından da mühüm elmi aktuallıq kəsb edir.

Fəxrinin tərcüməsi uzun illər elm aləminə məlum olmamışdır. 1960-cı ildə alman alimi Barbara Flemming Fəxriyə məxsus "Xosrov və Şirin" tərcüməsinin yeganə nüsxəsini Staatsbibliothek Preussischer Kulturbesitz"də prof. Karl Süssheim"in (1878-1947) kitabları arasında tapmış, bu qiymətli tapıntıya dair elmi məqalə yazıb nəşr etdirmişdir. Daha sonra isə əsər üzərində geniş tədqiqat apararaq onu latın qrafikasına transliterasiya etmiş və 1974-cü ildə əlyazma nüsxəsi ilə birlikdə elm aləminə təqdim etmişdir.[2]

Müxtəlif dövrlərdə bir sıra tədqiqatçılar bu və ya digər münasibətlə Fəxrinin "Xosrov və Şirin" tərcüməsi haqqında bəhs etmişlər. Bu sahədə xüsusilə Barbara Flemmingin apardığı tədqiqatlar mühüm əhəmiyyət kəsb edir. Azərbaycanlı alimlər arasında da Fəxrinin yaradıcılığına müəyyən diqqət göstərilmişdir. Prof. Qəzənfər Əliyevin 1985-ci ildə nəşr olunmuş "Nizaminin mövzu və süjetləri

[2] Flemming, B. Fahris Husrev u Şirin / Eine Türkische Dichtung Von 1367 / B.Flemming. – Wiesbaden: – 1974. – 487 s.

Şərq xalqları ədəbiyyatlarında”[3] kitabında, prof. Nüşabə Araslının “Nizami və Türk ədəbiyyatı”[4], prof. Möhsün Nağısoylunun “Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti”[5] monoqrafiyalarında Fəxrinin “Xosrov və Şirin” tərcüməsi haqqında qısa, lakin diqqətəlayiq məlumatlar verilmişdir.

Türk ədəbiyyatşünaslığında isə Fəxri yaradıcılığına münasibət, əsasən dövrün ədəbiyyatı ilə bağlı məsələlərin şərhində onun adının çəkilməsi ilə məhdudlaşmışdır. Bundan başqa, 2003-cü ildə Mevlut Gülməz tərəfindən hazırlanmış “Fahrinin Husrev ü Şirin”i”[6] adlı dissertasiyası əsərin dil xüsusiyyətlərinin tədqiqinə həsr olunmuşdur. 2010-cu ildə isə Özlem Güneş “Fahrinin Husrev u Şirin”i, Nizami ve Şeyhinin eserleri ile karşılaştırılması”[7] adlı doktorluq dissertasiyası yazmışdır.

Tədqiqatın obyekti və predmeti. Dissertasiya işinin əsas tədqiqat obyekti Nizami Gəncəvinin “Xosrov və Şirin” məsnəvisi və əsərin Fəxrəddin Yaqub ibn Məhməmməd Fəxri tərəfindən edilmiş tərcüməsinin mətnləridir. Bundan başqa, araşdırma zamanı Əbülqasim Firdovsinin “Şahnamə” əsərindən, həmçinin türk şairi Şeyxinin, Xarəzmli Qütbün Nizamidən etdiyi “Xosrov və Şirin” tərcümələrindən, mövzu ilə bu və ya digər dərəcədə əlaqəli olan elmi araşdırmalardan, Azərbaycan, Türkiyə ədəbiyyatşünaslığındakı elmi əsər və monoqrafiyalardan da tədqiqat obyekti kimi istifadə edilmişdir. Orijinal əsərin və onun Fəxri tərəfindən edilmiş tərcüməsinin qarşılıqlı müqayisəsi, süjet xətti və kompozisiyalardakı oxşar və fərqli məqamların aşkara çıxarılması, tərcüməçi-şair

[3] Алиев, Г.Ю. Темы и сюжеты Низами в литературах народов Востока / Г.Ю Алиев. – Москва: Наука, – 1985. – 331 с.

[4] Araslı, N. Nizami və türk ədəbiyyatı / N.Araslı. – Bakı: Elm, – 1980. – 208 s.

[5] Nağısoylu, M. Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti / M.Nağısoylu. – Bakı: Elm, – 2000. – 264 s.

[6] Gülmez, M. Fahrinin Husrev ü Şirin-i (2317-4683) Metin – Gramer – Sözlük: / Yüksek Lisans Tezi / Konya, 2003. – 563 s.

[7] Güneş, Ö. Fahrinin Husrev u Şirin”i (Metin ve Tahlil), Nizami ve Şeyhinin eserleriylə karşılaştırılması: / Doktora Tezi / – İstanbul, 2010. – 717 s.

tərəfindən edilmiş ixtisar və əlavələrin müəyyənləşdirilməsi, tərcümənin üslubu və sənətkarlıq məsələləri, onun ədəbiyyata, poeziyaya gətirdiyi yeniliklər isə dissertasiya işinin predmetini təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Təqdim edilən dissertasiya işinin əsas məqsədi Nizami Gəncəvinin "Xosrov və Şirin" poeması ilə Fəxri tərəfindən eyni adla tərcümə olunmuş variantının qarşılıqlı müqayisəli təhlilini apararaq hər iki mətnin forma və məzmun xüsusiyyətlərini kompleks şəkildə öyrənməkdən, fərdi xüsusiyyətlərini üzə çıxarmaqdan ibarətdir. Tədqiqatda hər iki mətn əsasında mövzu, forma, ideya, obraz, motiv və kompozisiya baxımından oxşar və fərqli məqamlar araşdırılmışdır. Bu müqayisəli yanaşma vasitəsilə tərcümənin bədii-estetik dəyərinin klassik ədəbi ənənənin davamlılığı kontekstində qiymətləndirilməsi məqsəd kimi qarşıya qoyulmuşdur.

Tədqiqatda bu məqsədə uyğun olaraq aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

– Orta əsrlər türk poeziyasında tərcümə anlayışı və onun prinsiplərini müəyyənləşdirmək;

– Nizami Gəncəvinin "Xosrov və Şirin" məsnəvisinin türk dillərinə tərcümələrini şərtləndirən tarixi-ictimai və ədəbi amilləri etibarlı qaynaqlar əsasında araşdırmaq;

– "Xosrov və Şirin" əsərinin orta əsr türk müəllifləri tərəfindən edilmiş tərcümələrinin müqayisəli təhlillərini vermək;

– "Xosrov və Şirin" məsnəvisinin türk dilinə tərcümələrinin orta əsrlər tərcümə yaradıcılığının inkişafındakı rolunu müəyyənləşdirmək;

– Əsərin Türk dilinə tərcüməsi və ona Türk dilində yazılmış ilk cavab-məsnəvi olan Nəvainin "Fərhad və Şirin" əsərinin süjet və kompozisiyasındakı fərqli və oxşar cəhətləri təhlil etmək;

– Fəxrinin həyatı, mühiti, irsinin tədqiq tarixini nəzərdən keçirmək;

– Fəxrinin tərcüməsini ilk dəfə elm aləminə tanıdan Barbara Flemmingin bu sahədəki fəaliyyətini araşdırmaq;

– Fəxrinin tərcüməsinin türk, rus və Azərbaycan ədəbiyyatşünaslığında öyrənilməsi tarixini araşdırmaq;

– Fəxrinin "Xosrov və Şirin" tərcüməsi ilə əsərin orijinalı arasında oxşar və fərqli xüsusiyyətləri araşdırmaq;

– Fəxrinin mövzu ilə bağlı yaradıcılıq axtarışları, tarixi-ədəbi qaynaqlara, məsələn, Firdovsinin "Şahnamə"sinə, xalq ədəbiyyatına müraciəti hallarını aşkara çıxarmaq, həmin mənbələrdən alınaraq əsərə əlavə edilən fəsilləri müəyyənləşdirmək və onların ilhaq səbəblərini araşdırmaq;

– Orijinal variantda olmayan və Fəxrinin öz qələm məhsulu olan hissələri müəyyənləşdirmək;

– Əsərin təhlili baxımından önəmli olan ayrı-ayrı beytlərin izahını vermək;

– "Xosrov və Şirin"in Fəxri tərəfindən edilmiş tərcüməsinin sənətkarlıq xüsusiyyətlərini incələmək;

– Nizami poemasının əsas məzmununun Fəxrinin tərcüməsində əksolunma xüsusiyyəti və dərəcəsini müəyyənləşdirmək;

– Nizami sənətinin fikri və poetik özəlliklərinin tərcümədə təqdim özünəməxsusluqlarını incələmək;

Tədqiqatın metodu. Tədqiqat zamanı mətnlər üzərində iş aparılmış, hermenevtik tədqiqat üsulundan istifadə edilmiş, sistemli və müqayisəli-tarixi metodun prinsipləri əsas götürülmüşdür. Bundan başqa, dissertasiyada tarixi-tipoloji və müqayisəli-analitik metodlardan da istifadə edilmişdir. Əldə edilmiş materialların təhlili zamanı analiz-sintez, induktiv və deduktiv metodlardan da faydalanmışıq. Tərcümə məsnəvinin poetik sənətkarlıq xüsusiyyətlərini araşdırarkən isə daha çox linqvopoetik təhlil metodunun üsullarına əsaslanmışıq.

Müdafiəyə çıxarılan əsas müddəalar. Dissertasiya işində müdafiəyə çıxarılan və mövzunu tam əhatə edən müddəalar aşağıdakılardır:

– Klassik poeziyadakı, o cümlədən orta əsrlər türk ədəbiyyatındakı tərcümə anlayışı ilə müasir tərcümə yaradıcılığı arasında böyük fərqlər vardır;

– Nizami Gəncəvi məsnəvilərinin orta əsrlərdə türk dillərinə tərcüməsini şərtləndirən əsaslı tarixi-ictimai və ədəbi şərtlər olmuşdur;

– Nizami əsərlərinin türk dillərinə tərcümələri tərcümə ədəbiyyatının inkişafında böyük rol oynamışdır;

– Fəxrəddin Yaqub ibn Məhəmməd Fəxri, Xarəzmli Qütb və Yusif Sinan Şeyxinin "Xosrov və Şirin" tərcümələri Nizami məsnəvisinin orta əsrlərdəki ən məşhur tərcümələridir;

– "Xosrov və Şirin"in türk dilinə edilmiş orta əsrlərə aid tərcümələrinin qarşılıqlı-müqayisəli öyrənilməsinin tərcümə sənətinin inkişaf trayektoriyasının izlənilməsi baxımından böyük əhəmiyyəti vardır;

– Əsərin türk dilinə tərcüməsinin də, eyni mövzuda türk dilində yazılmış ilk məsnəvinin – Nəvainin "Fərhad və Şirin" əsərinin də türkdilli epik şeirin inkişafına müsbət təsiri olmuşdur;

– Fəxrinin yaşayıb-yaratdığı XIV əsrin ictimai-siyasi həyatı və mədəni mühitinin öyrənilməsi Nizaminin "Xosrov və Şirin" məsnəvisi kimi məşhur bir əsərin türk dilinə tərcüməsinin təbii bir zərurətdən doğduğunu ortaya çıxarır;

– Fəxrinin əsərini elm aləminə tanıdan alman alimi Barbara Flemingin araşdırmaları sayəsində bu gün tərcümənin mətni bizlər üçün əlçatan olmuşdur;

– Fəxrinin tərcümə əsəri türk, rus və Azərbaycan ədəbiyyatşünaslığında yetərincə öyrənilməmişdir;

– Fəxri tərcümədə orijinalın əsas məzmununu qoruyub saxlamışdır;

– Tərcüməçi orta əsr tərcümə qanunlarına əsasən çox sərbəst davranmış, özü də mövzu ilə bağlı yaradıcılıq axtarışları aparmış, tarixi-ədəbi qaynaqlara müraciət etmiş, xalq ədəbiyyatı nümunələrindən də faydalanmışdır;

– Fəxri iş prosesində bəzi fəsilləri Firdovsinin "Şahnamə" əsərindəki "Xosrov və Şirin"lə bağlı bölmələrdən faydalanaraq tərcümə etmişdir;

– Bəzi fəsillər və parçalar tərcüməçinin öz bədii təxəyyülünün məhsullarıdır;

– Nizami sənətinin fikri və poetik özəllikləri, üslubi incəlikləri tərcümədə özünü açıq şəkildə göstərir.

Tədqiqatın elmi yeniliyi. Təqdim edilən dissertasiya işinin elmi yenilikləri aşağıdakılardır:

– Tədqiqat zamanı Fəxrəddin Yaqub ibn Məhəmməd Fəxrinin "Xosrov və Şirin" əsərinin əlyazmasından istifadə olunmuşdur. Əlyazmanın yeganə nüsxəsi Almaniyanın Marburg kitabxanasında mühafizə olunduğundan və Azərbaycanda mövcud olmadığından həmin nüsxə Almaniyada yaşayan azərbaycanlı alim, ədəbiyyatşünas və Nizami Gəncəvi irsinin tədqiqatçısı, Herford Universitetinin dosenti Sevil xanım Fuksun köməkliyi ilə əldə edilmişdir;

– Klassik türk poeziyasında tərcümə yaradıcılığı, onun özünəməxsus prinsip və özəllikləri və Nizami Gəncəvinin orta əsr türk tərcümə ədəbiyyatının inkişafındakı yeri ilk dəfə bu dissertasiya işində ətraflı araşdırılmışdır;

– Nizaminin "Xosrov və Şirin" poemasının türk dillərinə tərcümələrini şərtləndirən tarixi-ictimai və ədəbi amillər etibarlı qaynaqlar əsasında öyrənilmişdir;

– "Xosrov və Şirin" məsnəvisinin Fəxri tərəfindən tərcümə edilmiş variantı ilk dəfə olaraq kompleks şəkildə tədqiqata cəlb edilmişdir;

– "Xosrov və Şirin"in Qütb və Şeyxi tərəfindən edilən tərcümələri orijinal əsərlə, eyni zamanda Fəxrinin tərcüməsi ilə müqayisəli şəkildə araşdırılmış, tərcümələr arasındakı oxşar və fərqli xüsusiyyətlər təhlil olunmuşdur;

– Əsərin Fəxri tərəfindən edilmiş tərcüməsi ilə Nəvainin bu mövzuda türk dilində qələmə aldığı "Fərhad və Şirin" məsnəvisi ilk dəfə olaraq bu dissertasiya işində ümumtürk ədəbi prosesinin əhəmiyyətli hadisəsi kimi müqayisəli təhlilə cəlb edilmişdir;

– Fəxrinin "Xosrov və Şirin" tərcüməsi, onun elm aləminə tanıdılması, tədqiqi və nəşri tarixi, bu işdə əməyi olan elm insanlarının, xüsusilə alman alimi Barbara Flemingin elmi fəaliyyəti tədqiq edilmişdir;

– Tərcümənin yeganə əlyazmasının təsviri verilmişdir;

– Fəxri tərcüməsinin türk, rus və Azərbaycan ədəbiyyatşünaslığında öyrənilməsi tarixi araşdırılmışdır;

– Nizami poemasının əsas məzmununun tərcümədə əksi məsələləri orijinalla tərcümənin qarşılıqlı müqayisəsi yolu ilə aydınlaşdırılmışdır;

– İlk dəfə bu dissertasiya işində Fəxrinin mövzu ilə bağlı yaradıcılıq axtarışları öyrənilmiş, tərcüməçinin tarixi-ədəbi qaynaqlara, xalq ədəbiyyatına müraciəti aşkar edilmiş, onların səbəbləri izah edilmişdir;

– Nizaminin məsnəvisinə daxil olmayan, digər bədii qaynaqlardan, məsələn, Əbülqasim Firdovsinin "Şahnamə"sindən alınaraq tərcümə edilib əsərə əlavə olunan parçalar, fəsillər, beytlər fərqləndirilmiş, mənbələr təsbit olunmuş, tərcümə edilmədən yazılan fəsillər, parçalar və ayrı-ayrı beytlər və onların yazılma səbəbləri şərh edilmişdir;

– Nizami sənətinin fikri və poetik özəlliklərinin tərcümədə təqdim özünəməxsusluqları əsərdən gətirilən örnəklər əsasında izah olunmuşdur.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Dissertasiya işi Fəxrinin "Xosrov və Şirin" tərcüməsinin ən qədim və yeganə əlyazması üzərində aparıldığından xüsusi elmi-nəzəri əhəmiyyətə malikdir. Elmi-nəzəri fikrin, prioritet araşdırma metodlarının müəyyənləşdirdiyi nəzəri-metodoloji prinsiplər əsasında işlənmiş dissertasiya işinin elmi nəticələrinin əsas müddəaları aşağıdakı hallarda istifadə və tətbiq oluna bilər:

– Nizami Gəncəvi yaradıcılığı, onun təsir dairəsi və dərəcəsi, şairin mövzu və süjetlərinin yayılma arealı, məsnəvilərinə yazılan nəzirə və cavablar, əsərlərindən edilən tərcümələrlə maraqlananlar və bu barədə tədqiqat işi yazanlar üçün faydalı qaynaq ola bilər;

– Türk ədəbiyyatı ilə bağlı araşdırma aparan tədqiqatçılar üçün etibarlı mənbə ola bilər;

– Türk ədəbiyyatında tərcümə sənəti, orta əsr tərcümə ənənəsi və qaydaları ilə maraqlananlar üçün ədəbiyyat kimi istifadə edilə bilər;

– Türk ədəbiyyatında sələf-xələf münasibətləri istiqamətindəki tədqiqatlarda faydalı mənbə ola bilər;

– Ali məktəblərdə xüsusi kurslarda tədris vəsaiti kimi istifadə oluna bilər;

– Mövzu ilə maraqlanan geniş oxucu kütləsi üçün maraqlı mənbə ola bilər.

Tədqiqatın aprobasiyası və tətbiqi. Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurası tərəfindən təsdiq olunmuş, həmin institutun Nizamişünaslıq şöbəsində yerinə yetirilmiş və müzakirə olunmuşdur. Tədqiqatın əsas nəzəri müddəaları, başlıca elmi yenilikləri müəllifin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi dərgi, jurnal və məcmuələrdə, eyni zamanda xarici ölkələrin müvafiq elmi nəşrlərində dərc etdirdiyi müxtəlif elmi məqalələrində, xaricdə və respublikamızda keçirilmiş elmi-praktik konfransların materiallarının dərc olunduğu kitablarda əksini tapmışdır.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Nizamişünaslıq şöbəsində yerinə yetirilmişdir.

Dissertasiyanın strukturu. Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır və giriş – (16.094 şərti işarə), üç fəsil (birinci fəsil beş paraqraf – 70.208 şərti işarə, ikinci fəsil iki paraqraf – 56.999 şərti işarə, üçüncü fəsil dörd paraqraf – 90.087 şərti işarə), nəticə (4338 şərti işarə) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 237.726 şərti işarədir.

DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində dissertasiyanın ümumi səciyyəsi verilmişdir. Mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodoloji əsasları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi haqqında ətraflı məlumat verilmiş, nəzəri və təcrübi əhəmiyyəti, aprobasiyası göstərilmiş, strukturu şərh edilmişdir.

"Nizami Gəncəvinin "Xosrov və Şirin" əsəri Fəxrəddin Yaqub ibn Məhəmməd Fəxrinin tərcüməsində: orijinallıq və bədiilik" adlanan dissertasiya işi üç fəsildən ibarətdir.

Birinci fəsil **"Nizami Gəncəvi poemalarının orta əsr türkdilli ədəbiyyata təsiri və türk dilinə tərcümələri"** adlanır və beş paraqrafdan ibarətdir. **"Türk klassik poeziyasında tərcümə anlayışı və türkdilli ədəbiyyatda tərcümə əsərlərinin yaranmasında Nizami Gəncəvi yaradıcılığının rolu"** adlanan birinci paraqrafda tərcümə sənəti və orta əsr türk tərcümələri haqqında ətraflı məlumat verilmişdir. Orta əsr mütərcimləri məzmunu başqa dilə çevirməklə yanaşı, öz bədii ustalığını nümayiş etdirmək məqsədilə həmin dövrün tərcümə əsərlərində geniş yaradıcılıq sərbəstliklərinə yol verirdilər. "*Çətin elə tərcümə əsəri tapmaq olar ki, orada kiçik də olsa sərbəstlik ünsürü heç kökündən müşahidə edilməsin, çünki bəzən belə ünsürlərə mətnin ümumi kompozisiyası xatirinə, fikrin təsirini artırmaq və ya əskiltmək naminə yol vermək lazım gəlir"*[8].

Klassik tərcümə nümunələrinə nəzər yetirdikdə əsərin tərcümə və ya orijinal olmasını seçmək müəyyən çətinliklər doğurur. Bunun səbəbi orta əsrlərdə tərcümə prosesində mətnin sadəcə bir dildən digərinə çevirilməsi deyil, ona geniş izahlar, əlavələr edilməsi zərurəti ilə əlaqələndirilə bilər. Tərcüməçilər müəllif mətninə öz baxışlarını, üslublarını, tarixi mənbələri, milli xüsusiyyətləri də əlavə edərək əslində tərcümə olan əsərə yeni nəfəs vermiş olur və onu yeni kontekstdə təqdim edirdilər. Nəticə etibarilə, bəzi tərcümələr orijinaldan müəyyən qədər fərqlənib az qala yeni bir əsərə çevrilirdi.

[8] Əzimiov, C. Tərcümə prinsipləri / C.Əzimov. – Bakı: Azərnəşr, – 1955. – s. 36.

Təsadüfi deyil ki, bu əsərlərin tərcümə, yoxsa nəzirə olduğuna dair tədqiqatçıların fikirləri çox vaxt üst-üstə düşmür. Qeyd edək ki, "*Türk dilində Nizamininin şeirlərinin birbaşa tərcüməsi olan əsərlər də vardır ki, onların orijinal fraqmentlərinə baxmayaraq, onları tərcümə əsəri kimi qiymətləndirmək lazımdır".*[9]

Nizami əsərlərinin türk dilinə tərcüməsi şairin türk xalqları arasında tanınmasına və humanist ideyalarının yayılmasına mühüm töhfə vermişdir.

İkinci paraqraf **"Nizaminin "Xosrov və Şirin" poemasının türk dillərinə tərcümələrini şərtləndirən tarixi-ictimai və ədəbi amillər"** adlanır və XIV əsrdən başlayaraq Bəyliklərin yaranması, türk dilinə olan böyük maraq nəticəsində "Xosrov və Şirin" poemasının türk dillərinə tərcümə olunması şəraitini faktlar əsasında təhlilindən bəhs edir.

XIV əsr məsnəvi əsərlərin inkişafında xüsusi bir mərhələdir və bu yüzillikdə yazılmış məsnəvilərin əksəriyyəti günümüzə qədər gəlib çatmışdır. Müəyyən edilmiş əlli səkkiz əsərdən on beşinin müəllifi və tarixi məlumdur.[10] Qeyd edək ki, bu dövrdə tərcümə məsnəvilərin çoxalması da məhz bu yüksələn marağın təsiri idi.

"Xosrov və Şirin" hekayəsini məsnəvi şəklində ölümsüzləşdirən Nizaminin türk tərcümə ədəbiyyatının inkişafında müstəsna rolu olmuşdur. XIV əsrdən başlayaraq türk xalqları arasında bu əsərə olan maraq artmağa başlamışdır. Şairin "Xosrov və Şirin" əsəri dövrün tələblərinə uyğun olaraq fars dilində yazıldığından türk dilinə tərcümə olunmasına çox böyük ehtiyac duyulurdu. Söz, şeir maraqlıları əsəri ana dillərində oxuyub orada olan incəlikləri duymaq istəyirdilər. Beləliklə, XIV əsrdən başlayaraq bu misilsiz poema türk dillərinə tərcümə olunmağa başlandı.

Anadoluda Bəyliklər dövründən Osmanlı dövlətinə, xüsusilə II Muradın zamanına qədər sultanlar şairləri özlərinə yaxın dost hesab edərək, onlarla həm səfərlərə çıxmış, həm də saraylarında təşkil edilən

[9] Араслы, Н. Низами Гянджеви и Туречкая литература / Н.Араслы. – Баку: Элм ве тахсил, – 2021. – с. 92.

[10] Çelebioğlu, A. Türk Edebiyatında Mesnevi, (XV. Yy.a kadar) / A.Çelebioğlu – İstanbul: Kitabevi Yayınları, – 1999. – s. 43.

ədəbi məclislərdə birgə iştirak etmişlər. Germiyanoğlu və Aydınoğullar sarayında da türkcə əsərlərin yazılmasına, ərəb və fars dillərində olan qiymətli abidələrin türk dilinə tərcümə olunmasına çox önəm verildiyini görə bilirik.[11]

Xarəzmli Qütb Fəxri və Şeyxinin müxtəlif əsrlərdə Nizaminin "Xosrov və Şirin" məsnəvisini türk dilinə tərcümə etməklə türk dilli poeziyanın zənginləşməsində xidmətləri danılmazdır. Onlar əsərin poetik və mənəvi dərinliyini qoruyaraq, onu türk oxucularının daha yaxşı başa düşəcəyi bir üslubda tərcümə etməyi öhdələrinə götürmüşdülər. Əlişir Nəvai isə bu məsnəvini yeni bir ad və mövzu ilə işləyərək türk ədəbiyyatı tarixində orijinal bir əsər yaratmışdır. Onun "Fərhad və Şirin" əsəri Nizaminin "Xosrov və Şirin"inə cavab olmaqla yanaşı, mövzunun yeni forma və məzmunda təqdimidir.

"Xarəzmli Qütb ilə Fəxrinin "Xosrov və Şirin" tərcümələrinin oxşar və fərqli xüsusiyyətləri" adlanan üçüncü paraqrafda Qütb tərəfindən ilk dəfə türk dilinə tərcümə olunmuş "Xosrov və Şirin" poemasının təhlili verilmişdir.

"Xosrov və Şirin"i ilk dəfə 1341-ci ildə Qızıl Orda şairi Xarəzmli Qütb türk dilinə çevirərək Tini bəy və Məleykə xanıma təqdim etmişdir. Qütbün tərcüməsi 1383-cü ildə Misirdə Berke Fəqih tərəfindən yenidən köçürülmüş və redaktə olunmuşdur. Əsərin yeganə nüsxəsi Paris Milli kitabxanasında saxlanılır.[12]

Polyak alimi Ananiaş Zayonçkovski poemanı mətnşünaslıq və linqvistik baxımdan tədqiq etmişdir. Onun araşdırmaları və əldə etdiyi nəticələr dünyanın müxtəlif jurnallarında məqalələr şəklində dərc olunmuşdur.[13] Alimin əsas xidmətlərindən biri də ondan ibarətdir ki, faksimile əsasında ilk dəfə olaraq "Xosrov və Şirin" poemasının transliterasiyasını və lüğətini tərtib etmiş, Qütbün əlyazmasını ətraflı şəkildə təhlil edərək orijinal əsərlə müqayisələr aparmışdır.

---

[11] https://www.youtube.com/watch?v=9OWRXzYCeZ8

[12] Наджип, Е.Э. Историко-сравнительный словарь тюрских языков XIV века: [в 4 томах] / Е.Э. Наджип. – Москва: Наука, – т.1. – 1979. – с. 31.

[13] Зайончковский, А. Масла очей – Тюркское köz jaγy // – Москва: Ближний и Средный Восток, – 1962. – с. 56-62.

"Qütb yalnız əsəri türk dilinə tərcümə etməklə kifayətlənmiş, hekayənin süjet xəttinə yeni bir əlavə etməmişdir. Nizaminin əsərində olan fəsil başlıqlarının da eyni olması bunu bir daha sübut edir".[14] Fəxrinin "Xosrov və Şirin" tərcüməsini isə orijinal əsərdən fərqləndirən bir çox məqamlar vardır. Məsələn, tərcüməçi Xosrovla Bəhram Çubin arasında gedən mübarizə və Bəhramın döyüşdə məğlub olub Çinə getməsi bölümlərini Firdovsinin "Şahnamə"sindən götürərək əsərə daxil etmişdir.

"Qütbün tərcüməsinin mətnində Berke Fəqihin (əsərin yeganə nüsxəsinin katibi) *özündən bəhs etdiyi 51 beyt yer almışdır və poemanın mətnindəki bəzi cüzi dəyişikliklərin məhz katib tərəfindən həyata keçirilməsi imkanını istisna etmək çətindir".*[15] Fəxrinin tərcüməsində isə heç bir katib yazısına, beytinə rast gəlinmir.

Dördüncü paraqrafda "**Yusif Sinan Şeyxi ilə Fəxrinin "Xosrov və Şirin" tərcümələrinin ümumi və fərqli cəhətlərinin analizi"** verilmişdir. Şeyxinin "Xosrov və Şirin" əsəri XV əsrdə əski Anadolu türkcəsi ilə qələmə alınmış mənzum əsərdir. Təzkirələrin rəvayətinə görə, II Murad Şeyxini sınağa çəkmək məqsədilə Nizaminin "Xəmsə"sini ona vermiş, şair də şeirdəki qüdrətini göstərmək üçün bu əsəri seçib türk dilinə tərcümə etmişdir.[16] Əsər üzərində ilk araşdırmanı 1963-cü ildə Faruk Kadri Timurtaş həyata keçirmiş, İstanbulda olan səkkiz nüsxədən istifadə edərək doktorluq işi yazmışdır. Sözügedən araşdırmada mətnin transkripsiyası, dil təhlili, müəllif və əsər haqqında məlumatlar, əsərin ümumi xülasəsi, yalnız türkcə sözlərdən ibarət lüğət və həmin dövrün şərtlərində tapıla bilən nüsxələrin siyahısı (50 nüsxə) yer alır.[17]

---

[14] Gülmez, M. Fahrinin Husrev ü Şirin-i (2317-4683) Metin – Gramer - Sözlük: / Doktora Tezi / Konya, 2003. – s. 18.

[15] Ганиханов, М.А. Сравнительный анализ поем «Хосрав и Ширин» Низами и Кутба: / автореферат дисс. фил. наук. / – Ташкент, 1994. – с. 12.

[16] Abdullah, F. Nizami-Şeyhi Husrev u Şirin mükayesesi // – İstanbul: Istanbul Üniversitesi Edebiyat Fakultesi Tarih Dergisi, – 1950. c.1. sayı 2, – s. 263-282.

[17] Şan, F. Şeyhinin "Husrev ü Şirin"i (İnceleme-Metin-Çeviri-Dizin/Sözlük): / İstanbul, 2017. – 1280 s.

Şeyxinin əsərdə tarixi mənbələrdən, türk şifahi xalq ədəbiyyatından istifadə etməsini və bəzi əlavələrini nəzərə alaraq alimlər bu tərcümə əsərini daha çox orijinal nümunə kimi qiymətləndirmişlər. Timurtaş "Şeyxi və Nizaminin "Xosrov və Şirin"lərinin mövzu baxımından müqayisəsi" adlı məqaləsində "əsər tərcümədirmi?" sualına bu cür münasibət bildirmişdir: "*Şeyxinin mövzunu tamamilə Nizamidən götürdüyü anlaşılır, ancaq bu nəticə bizi əsərin Nizamidə olduğu kimi tərcümə edildiyi hökmünə gətirib çıxara bilməz. Çünki istər Şərqdə, istərsə də olsun Qərbdə, bəzi mövzular müxtəlif sənətkarlar tərəfindən işlənmişdir. Eyni mövzuları alıb tamamilə eyni şəklidə anlatdıqları halda, iki müəllifin əsəri fərqli mahiyyətdə ola bilər. Bununla bərabər Şeyxinin bir çox beytləri eynilə tərcümə etdiyini söyləmək lazımdır. Ancaq bu tərcümə Qütbdə olduğu kimi sözbəsöz edilməyib ümumi anlamını vermişdir".*[18]

Prof. Nüşabə Araslı Nizaminin və Şeyxinin "Xosrov və Şirin" əsərləri üzərində geniş müqayisəli təhlil apararaq, onların mövzu, üslub və bədii xüsusiyyətlərini araşdıraraq belə bir nəticəyə gəlmişdir: "*Şeyxinin "Xosrov və Şirin" əsərini biz ona görə tərcümə adlandırırıq ki, burada Nizaminin əsəri bəhs-bəhs, beyt-beyt eynilə tərcümə olunmuşdur. Hətta Allaha müraciət, kitabın yazılma səbəbi və s. məzmundan kənar hissələr də Nizamidən tərcümə edilərək yazılmışdır".*[19] Alim Şeyxinin tərcüməsini Nizaminin poetik ruhunu qoruyan ən mükəmməl türk tərcümələrindən biri kimi qiymətləndirir.

Ataəmi Mirzəyev Şeyxinin "Xosrov və Şirin" əsərinin orijinal, tərcümə və yaxud nəzirə olması haqqında Nüşabə Araslı və Timurtaşın gətirdikləri faktların inkaredilməz olduğunu bildirir. O, hansı alimin fikri daha doğrudur sualına bu cür cavab verir: "*Hər iki araşdırıcının gətirdiyi faktları birləşdirərək onu tərcümə-nəzirə kimi dəyərləndirmək daha doğru yoldur, çünki bu termin hər iki alimin*

[18] Timurtaş, F. Şeyxi və Nizaminin Husrev ve Şirinlerinin konu bakımından mükayisesi // – İstanbul: Türk Dili ve Edebiyatı Dergisi, – 1960. c.10. – s. 31-32.
[19] Araslı, N. Nizami və türk ədəbiyyatı / N.Araslı. – Bakı: Elm, – 1980. s. 22.

gətirdiyi elmi faktları, sübut və dəlilləri özündə birləşdirərək fikri daha dolğun ifadə edir".[20]

Fəxri və Şeyxinin tərcümələri türk ədəbiyyatının və dilinin inkişafında mühüm tarixi əhəmiyyət daşıyır.

Beşinci paraqrafda isə **"Əlişir Nəvainin "Fərhad və Şirin" əsəri ilə Fəxrinin "Xosrov və Şirin" tərcüməsinin müqayisəli təhlili"** verilir. Özbək xalqının böyük mütəfəkkir alimi, dövlət xadimi Əlişir Nəvai dahi sələfinin əsərindən ilhamlanaraq "Fərhad və Şirin" əsərini ilk dəfə cığatay türkcəsində qələmə almışdır. Nizami Gəncəvi və Xosrov Dəhləvinin əsərləri başda olmaqla daha öncə yazılmış "Xosrov və Şirin"ləri müqayisə etməklə işə başlayan Nəvai, mövzunun özündə dəyişiklik edərək Xosrovun yerinə başqa əsərlərdə ikinci dərəcəli yer alan Fərhadı əsas qəhrəman kimi işləmişdir. Şair eşqi tərənnüm edən əsərində daha çox aşiqin iztirablarını ön plana çıxartmışdır.

Fəxri ilə Nəvainin əsərlərini birləşdirən əsas cəhət hər ikisinin türk dilində yazılmasıdır. Dövrün ümumtürk ədəbi prosesinin incələnməsi göstərir ki, əsərin türkcəyə tərcümə olunmasına da, türk dilində belə bir əsərin yazılmasına da böyük ehtiyac var idi.

Fəxrinin tərcüməsində Fərhad obrazı əsərə gec daxil olub, ikinci dərəcəli obraz kimi verilir. Şair Fərhada böyük hörmət və ehtiram bəsləyərək hekayənin 2642 beytdən ibarət olan birinci hissəsini "Şapur u Şirin", 1732 beytdən ibarət ikinci hissəsini isə "Şirin u Fərhad" adlandırmışdır.

Nəvai də "Fərhad və Şirin" adlandırdığı əsərində fərqli süjet xətti seçərək Fərhadı şah oğlu kimi təsvir edir və onu ən yüksək pilləyə qaldırır. Fərhad naz-nemət içərisində yaşamasına baxmayaraq arzularının gerçəkləşməsi yolunda heç bir çətinlikdən qorxmayan ideal insan kimi təsvir edilir. O, taxt-tacda, var-dövlətdə gözü olmayan, xalqını sevən sadə bir insan kimi oxucunun yaddaşında qalır.

Həmid Araslı qeyd edir ki, Fərhadın məcnunvari təsviri və məktublaşması müəyyən dərəcədə Nizaminin "Leyli və Məcnun"unu

[20] Mirzəyev, A. Azərbaycan bədii tərcümə tarixində Füzuli mərhələsi: / ədəbiyyat üzrə filologiya elmləri doktoru dis. / – Bakı, 2012. – s. 25.

xatırladır. Lakin Nəvai Fərhadın Sokratın yanına səfər etməsi, əjdaha, Əhrimən və s. ilə mübarizə, dərya səfəri kimi dəyərli və orijinal əlavələrlə poemanı fərqli şəkildə qurur.[21]

"Fərhad və Şirin" poemasında Məryəm, Şəkər, Rum səfəri, Barbəd, Nikisa, Bəhram Çubin kimi obrazlara yer verilməmişdir. Sadəcə əsərin sonunda "Bəhramın Ərmən zəminə gəlməsi" hissəsində Bəhramdan bəhs edilir. Ancaq burada Bəhram Çubin deyil, Fərhadın dostu Bəhramdan söhbət gedir. O, dostu Fərhadın qəbrini ziyarət etmək, qisasını almaq üçün gəlir. Fəxri Nəvaidən fərqli olaraq mövzunun Nizami poemasında əksini tapmayan, yaxud ötəri toxunulmuş bəzi motivlərə, o cümlədən Xosrovun Rum səfəri, Bəhram Çubinlə münaqişələrinə dair hissələrə geniş yer verərək tarixi qaynaqlara və "Şahnamə"yə daha çox yaxınlaşmaqla orijinaldan müəyyən mənada fərqli bir əsər ərsəyə gətirmişdir.

İkinci fəsil **"Fəxrəddin Yaqub ibn Məhəmməd Fəxrinin həyatı və mühiti, irsinin tədqiq tarixi"** adlanır və iki paraqrafdan ibarətdir. Bu fəsildə Fəxrinin yaşadığı dövr, Aydınoğullar bəyliyi, şairin həyatı və mövzunun tədqiq tarixi araşdırılmışdır.

Səlcuq imperiyası monqolların təzyiqi nəticəsində zəiflədikdən sonra türkmən bəylərinin ərəb və əcəm mədəniyyətinə yetəri qədər etibar etməmələri, öz milli adət-ənənələrinə və dillərinə dəyər verməmələri, elm adamlarını, şairləri, ədəbi xadimləri himayə etmələri türk dili və ədəbiyyatı üçün məhsuldar bir dövrün başlanmasına səbəb olmuşdur. Onlar hakimiyyətləri dönəmində, siyasi mübarizələri ilə paralel olaraq elmi və ədəbi mühitin inkişafını da təşviq edir, ərəb-fars dillərini yaxşı bildikləri halda türkcə yazmağa üstünlük verirdilər.[22]

"*1277-ci ildə keçirilən ilk hökümət iclasında Qaramanoğlu Mehmet bəy hər yerdə türkcədən başqa heç bir dilin istifadə oluna bilməyəcəyinə dair qərar qəbul etdi. Beləliklə, XIV əsrdə Orta Anadoluda doğulmuş Türk ədəbiyyatı Qərbi Anadoluda inkişaf edərək*

[21] Araslı, H. Azərbaycan Ədəbiyyatı tarixi və problemləri / H.Araslı. – Bakı: Gənclik, – 1998. – s. 670.

[22] Kartal, A. Şiraz'dan İstanbul'a Türk-Fars Kültür Coğrafyası Üzerine Araştırmalar / A.Kartal. – İstanbul: Kartuba kitap, – 2010. – s. 389.

öz məhsullarını verməyə başlamışdır. Bunların başında Aydınoğullar sülaləsi dayanırdı".[23] Bu addım yalnız dövlət idarəçiliyində deyil, həm ictimai, həm də ədəbi həyatda türkcənin mövqeyini gücləndirmişdir.

Əlimizdə olan qiymətli "Düsturnameyi-Ənvəri"[24] və "İbn Bəttutə səyahətnaməsi"[25] dövrün ictimai-siyasi və mədəni reallıqlarını əks etdirən əsas mənbələrdən hesab olunur. XV əsrdə Ənvəri tərəfindən qələmə alınmış "Düsturnameyi-Ənvəri", başda Aydınoğulları olmaqla bəzi Anadolu bəyliklərinin siyasi tarixi, ictimai-mədəni həyatı haqqında ətraflı məlumat təqdim edir. Digər tərəfdən, məşhur səyyah İbn Bəttutənin XIV əsrdə qələmə aldığı "Səyahətnamə" adlı əsərində müəllifin Anadoluya etdiyi səfərlər zamanı qarşılaşdığı şəhərlər, bəy ailələri, dini-mədəni mühit və gündəlik həyatla bağlı detallı müşahidələri yer almışdır. Hər iki mənbə, bəyliklər dövrünün yalnız siyasi deyil, eyni zamanda mədəni və sosial tarixinin öyrənilməsi baxımından da əhəmiyyətli elmi dəyərə malikdir.

XIV əsrdə Aydınoğlu İsa bəyin sarayında yaşayıb-yaratmış şairlərdən biri də Fəxrəddin Yaqub ibn Məhəmməd Fəxri olmuşdur. Şairin poeziyası haqqında əlimizdə sadəcə bəyin sifarişilə Nizami Gəncəvidən tərcümə etdiyi "Xosrov və Şirin" ("Xusrev ü Şirin") əsəri vardır. Fəxri ləqəbli Fəxrəddin Yaqub ibn Məhəmməd Fəxri Nizaminin "Xosrov və Şirin" məsnəvisini 12 mart 1367-ci ildə türk dilinə çevirərək nəfis kitab şəklində Aydınoğlu İsa bəyə təqdim etmişdir. Əsər 168 vərəq və 4683 beytdən ibarətdir. Hərəkəli mətndə sətir sayı 15-dir. Sətirlər sütunlara bölünmüşdür. Əsərin yeganə nüsxəsi Almaniyada Marburg Dövlət kitabxanasında saxlanılır.

Fəxri təxəllüslü şair haqqında əlimizdə çox az məlumat vardır. Onun haqqında tək bilgimiz 718.h/1318.m-ci ildə Ayasoluq

[23] Cantay, G. Anadolu Türk Beylikleri Sanatı. Türkler / G.Cantay. – Ankara: Yeni Türkiye Yayınları, – 2002. – s. 26.
[24] Yınanç, M.H. Düsturnamei Enveri / M.H.Yınanç. – İstanbul. Evkaf matbaası. – 1929. – 100 s.
[25] Tanci, A.B. İbn Battuta Seyahetnamesi: [2 cilddə] / Çeviri, İncelemeler ve Notlar. Aykut Sait. – İstanbul. Yapı kredi Yayınları, – 2004. c.1, – s. 422.

qəsəbəsində doğulduğu və İsa bəyin himayəsində olmasıdır. Fəxrinin bədii yaradıcılığı, həyatı və ölüm tarixi barədə əlimizdə hec bir tutarlı məlumat yoxdur. Bütün bunlar Fəxrinin həyat və yaradıcılığını araşdırmaq üçün müəyyən çətinliklər yaradır.

Şairin tərcümeyi-halı və yaradıcılığı haqqında təzkirələrdə heç bir məlumata rast gəlmirik. Sadəcə, onun tərcümə etdiyi "Xosrov və Şirin"də yer alan qeydlərə istinadən həyatı haqqında müəyyən fikirlər irəli sürə bilərik. Əsərin "Xatmı-kitab" ("Kitabın sonu") bölməsində, daha dəqiq desək, 4657-4659-ci beytlərində Fəxri "Xosrov və Şirin" tərcüməsini 50 yaşından sonra yazdığını qeyd etmişdir.

Şairin klassik Şərq elmlərinə dərindən bələd olması, həm ərəb-fars, həm də türk dilini mükəmməl səviyyədə bilməsi, onu istedadlı, fəlsəfi düşüncəyə malik olan ensiklopedik bir şəxs kimi qiymətləndirməyə əsas verir. Əks təqdirdə dövrünün sayılıb-seçilən ziyalısı, dövlət xadimi və mütəfəkkiri olan İsa bəyin diqqətini cəlb etməzdi.

İkinci fəslin ikinci paraqrafında "**Mövzunun tədqiq tarixi"nə** nəzər salınmışdır. "Xosrov və Şirin" əsərini türk dilinə tərcümə etməklə Nizami mövzularının yayılması və təsir dairəsinin genişlənməsinə töhfə vermiş Fəxrinin həyat və yaradıcılığı Azərbaycan, Türkiyə, həmçinin Rusiya ədəbiyyatşünaslığında ətraflı şəkildə öyrənilməmişdir. Nizami əsərlərinin orta əsr türk tərcümələrinə həsr olunmuş tədqiqatlarda isə şairin fəaliyyəti və xüsusilə onun "Xosrov və Şirin" tərcüməsi barədə yalnız qısa və səthi məlumat verilmişdir. Bu tədqiqatlarda Fəxri ilə bağlı ətraflı və dərin bilgiyə rast gəlinmir, hətta bəzi əsərlərdə şairin adı belə qeyd edilməmişdir. Mövcud elmi ədəbiyyatda onun yaradıcılığına dair fikirlər, əsasən ümumi xarakter daşıyır və yalnız hər kəsə məlum məqamlara toxunmaqla kifayətlənirlər. Bu isə şairin həyat və fəaliyyətinin kompleks şəkildə öyrənilməsinə mane olur və onun ədəbiyyat tarixindəki yerinin daha dəqiq müəyyənləşdirilməsini çətinləşdirir.

Barbara Flemmingin türk ədəbiyyatı tarixinin öyrənilməsində misilsiz xidmətləri olmuşdur. Fəxrinin "Xosrov və Şirin" əlyazmasını tapması, latın dilinə transliterasiya edib əlyazısı ilə bir yerdə kitab

halında nəşr etdirməsi türk dünyası üçün mühüm töhfələrdən biridir. Flemmingin araşdırmasına qədər Nizaminin "Xosrov və Şirin" əsərinin türk dilinə iki tərcüməsi məlum idi: Xarəzmli Qütb və Yusif Sinan Şeyxinin tərcümələri. Qütblə Fəxri eyni əsrdə yaşamaqlarına baxmayaraq, bəlkə də bir-birilərinin tərcümələrindən xəbərsiz olmuşlar. Alman aliminin tədqiqatlarından sonra məlum oldu ki, poemanın türk dilinə ikinci tərcüməsi Fəxrəddin Yaqub ibn Məhəmməd Fəxriyə aiddir. Bu da əlyazmanın tarixdən silinib itməsinin qarşısını almış oldu.

"Fəxrinin "Xosrov və Şirin" tərcüməsi" adlanan üçüncü fəsil dörd paraqrafdan ibarətdir. Bu fəsildə Fəxrinin tərcüməsi ilə Nizaminin "Xosrov və Şirin" əsərinin geniş şəkildə müqayisəli təhlili, mövzu ilə bağlı şairin yaradıcılıq axtarışları, xalq ədəbiyyatına müraciəti, "Şahnamə"dən götürdüyü ayrı-ayrı fəsil və beytlərin izahı, Nizami sənətinin fikri və poetik özəlliklərinin tərcümədə təqdim özünəməxsusluqları araşdırılmışdır. Üçüncü fəslin "**Nizami poemasının əsas məzmununun Fəxrinin tərcüməsində əksi"** hallarının incələnməsinə həsr olunmuş birinci paraqrafında Nizaminin "Xosrov və Şirin" poeması ilə Fəxrinin tərcüməsinin oxşar və fərqli xüsusiyyətləri müəyyənləşdirilmişdir. Fəxrinin "Xosrov və Şirin" tərcüməsi ilə orijinalın ideya və məzmunu arasında müəyyən fərqlər müşahidə olunur. Bu fərqin əsas səbəbi Fəxrinin tarixi gerçəkliyə və hadisələrin real-tarixi əsaslarına xüsusi diqqət yetirməsidir. O, Nizaminin daha çox fəlsəfi, estetik və mənəvi qayələrə üstünlük verən poetik üslubuna böyük ehtiram göstərsə də, onun bəzi məqam və situasiyalara romantik və simvolik yanaşmasını qəbul etmir. Məhz buna görə də Fəxri Nizamiyə olan dərin hörmət və ehtiramını qorumaqla yanaşı, bəzi məsələlərdə onu qınamaqdan belə çəkinmir:

şeker gibi bu türki dilce düzdük
seninçün qıssa-yi Perviz ü Şirin
acem dilince düzen düzdi ışqın

ne cengin zikr qıldı vu ne sulhın.[26]

Mütərcim bu sözlərində heç də haqsız deyildir. O, əsərini türkcə yazdığını xüsusi vurğulayır. Türk dilini şirin, şəkər bir dil kimi dəyərləndirir. Fars dilində eşq dastanı yazan Nizamini isə savaşı və sülhü geniş lövhələrlə təsvir etmədiyinə görə qınayır. Bu da təbii idi, çünki "Eşqdir mehrabı uca göylərin" deyən Nizaminin məqsədi bir eşq dastanı yaratmaq idi və təsadüfi deyil ki, əsərdə eşqin qüdrətinə həsr olunmuş ayrıca fəsil də yer almışdır. Odur ki, Nizami Xosrov Pərvizin ən güclü rəqibi olan Bəhram Çubinlə mübarizə hekayəsini çox qısa verir. Digər tərəfdən Xosrovun Bizansa getməsi və orada başına gələn macəralardan söhbət açmır. Fəxri isə öz tərcüməsində bu "boşluqları" doldurmağa çalışmışdır. Bu səbəbdən daha qədim bir mənbədən, Firdovsinin "Şahnamə"sindən istifadə edir.

Üçüncü fəslin ikinci paraqrafında **"Nizami poemasından tərcümə edilmədən yazılan fəsillər, parçalar və ayrı-ayrı beytlər və onların yazılma səbəbləri"** araşdırılmışdır. Fəxri əsərin bəzi hissələrində, xüsusilə tarixi hadisələrin təsvirinin verildiyi parçalarda Nizaminin əsərinə sadiq qalmaqla yanaşı, mövzunu daha dərindən işləyərək, dövrünün tələbləri və oxucu zövqlərini nəzərə alaraq əsərin bəzi hissələrinə əlavələr etmiş, xüsusilə tarixi motivlərə dair bölmələri genişləndirmişdir. Xosrov Pərviz ilə Bəhram Çubin arasındakı münasibətlərin təqdimatı bu baxımdan diqqətəlayiqdir. Əgər Nizami əsərində bu münaqişəyə daha çox fon xarakteri vermişdisə, Fəxri bu qarşıdurmanı təfsilatı ilə işləyərək, tarixi faktlara, mənbələrə istinad etmiş və "Şahnamə"dəki epik lövhələri öz tərcüməsinə daxil etmişdir. Bütün bunlar tərcümə əsərin məzmun baxımından orijinaldan fərqlənməsinə xidmət etmiş, eyni zamanda da türk oxcusu üçün daha geniş məlumat mənbəyinə çevrilməsinə səbəb olmuşdur.

[26] Flemming, B. Fahris Husrev u Şirin / Eine Türkische Dichtung Von 1367 / B.Flemming. – Wiesbaden: – 1974. – s. 266.

Nizami poemasını tərcümə etmək kimi çox çətin və məsuliyyətli işə girişməyə cəsarət etmədiyini bildirən şairə İsa bəyin hökmdar Sultan Mahmudu, Firdovsi və onun "Şahnamə"sini xatırlatması da təsadüfi olmamışdır. Hökmdar söz sənətinin tarixi əhəmiyyətini yüksək dəyərləndirdiyini, bədii sözün sənətkarın və onun məmduhunun adını əbədiləşdirərək tarixdə qalmasında əvəzsiz rolunu düzgün qiymətləndirmiş və bu səbəbdən də şairi tərcüməyə başlamağa həvəsləndirmişdir:

eger Şahname olmasaydı mevcud
ne Firdevsi añılurdı ne Mahmud
bugün oquyıcaq sen Şahname
bulunur aşikara xasse amme
ki Mahmud idi bir sultanu server
añа Firdevsiyidi medh-güster.[27]

Fəxri tərcümə prosesində yalnız mətnin orijinalına sadiq qalmaqla kifayətlənməmiş, eyni zamanda əsəri dövrün ideoloji, tarixi və sosial reallıqlarına uyğunlaşdıraraq, yeni bir məzmun əlavə etmişdir. Onun bəzi hissələri tərcümə etmədən keçməsi və ya orijinala əlavə beytlər yazması tərcüməyə passiv vasitəçi kimi deyil, yaradıcı ədib kimi yanaşdığını nümayiş etdirir. Xüsusilə, Bəhram Çubin və Xosrov Pərviz arasında baş verən tarixi qarşıdurmanın geniş işlənməsi, "Şahnamə"nin tərcüməyə adaptasiyası və əlavə didaktik beytlərin daxil edilməsi Fəxrinin məqsədli şəkildə klassik mətnə yeni baxış bucağı gətirmə niyyətini əks etdirir.

"Fəxrinin mövzu ilə bağlı yaradıcılıq axtarışları, tarixi-ədəbi qaynaqlara, xalq ədəbiyyatına müraciəti" adlı üçüncü paraqrafda Fəxrinin "Xosrov və Şirin" tərcüməsində xalq yaradıcılığı nümunələrinin istifadəsi ayrıca diqqət çəkir. Nizaminin əsərində xalq ədəbiyyatından gələn motiv, obraz, süjet və poetik ifadə vasitələri geniş yer tutur. Fəxri bu elementləri türk dilinə keçirərkən yalnız mətnin hərfi tərcüməsi ilə kifayətlənməmiş, onları hədəf dilin folklor və dil xüsusiyyətlərinə uyğunlaşdırmışdır. Orijinalda işlənən bəzi folklor nümunələrinin türk dilində qarşılığını vermək mümkün

[27] Yenə orada, s.263

olmadıqda onları ixtisar etmiş, yaxud məna baxımından yaxın atalar sözləri, məsəllər və deyimlərlə əvəz etmişdir. Eyni zamanda, Fərhadla bağlı rəvayət, qəhrəmanın uşaqlıq dövrü, yuxu, at, fal və öyüd-nəsihət kimi folklor motivlərinin işlənməsində yaradıcı yanaşma nümayiş etdirmişdir. Xüsusilə Fərhadın çəkdiyi Şirin rəsmi ilə bağlı rəvayətin və nar ağacı haqqında xalq rəvayətinin tərcüməyə daxil edilməsi Fəxrinin orijinala yaradıcı münasibətini göstərir. Tərcümədə çoxsaylı atalar sözü, məsəllər və hikmətli ifadələrdən istifadə olunması əsərin dilini milli-mədəni baxımdan zənginləşdirmiş, mətnin türk oxucusu tərəfindən daha asan qavranılmasına şərait yaratmışdır. Beləliklə, Fəxri Nizaminin poetik irsini qorumaqla yanaşı, xalq yaradıcılığı elementlərini türk dilinin ifadə imkanları ilə uzlaşdıraraq tərcüməyə milli və fərdi poetik çalarlar qazandırmışdır.

Üçüncü fəslin 4-cü paraqrafı "**Nizami sənətinin fikri və poetik özəlliklərinin tərcümədə təqdim özünəməxsusluqları"**na həsr olunmuşdur. Nizami Gəncəvi yaradıcılığı Şərq poeziyasının yalnız zəngin bədii-estetik örnəklərindən deyil, həm də klassik şeirin dərin fəlsəfi, ictimai məzmunu və mənəvi ideyaları ilə seçilən zəngin bir nümunəsidir. Şairin poemalarında ümumbəşəri idealların ifadəsi, dini-ideoloji düşüncələr, insanın mənəvi ucalığı, məhəbbət, ədalət kimi mövzular xüsusi ustalıqla işlənmişdir. Sərrast seçilmiş məcazlar, təsvir və simvolların rəmzi dillə ifadəsi onun əsərlərinin məzmun dərinliyini artıqmaqla yanaşı, onları klassik poeziyanın yüksək nümunəsinə çevirmişdir. Bütün bu xüsusiyyətlər Nizami yaradıcılığının təkcə öz vətənində deyil, onun sərhədlərindən uzaqlarda da məşhurlaşmasına səbəb olmuşdur. Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan şairi Nizami", Xəlil Yusifovun "Nizaminin lirikası", Azadə Rüstəmovanın "Nizami Gəncəvi həyatı və sənəti", Nüşabə Araslının "Nizaminin poetikası" adlı monoqrafiyalarında Nizaminin sənəti və sənətkarlığı ətraflı şəkildə işıqlandırılmışdır.

Nizami əsərindəki təşbih, istiarə, təşxis, təlmih, təzad, təkrir və digər poetik fiqurlar təkcə estetik baxımdan deyil, eyni zamanda dərin mənəvi və fəlsəfi məna daşıyır. Bu poetik vasitələrin türk dilinə tərcüməsi zamanı qarşıya çıxan çətinliklər, tərcümə prosesinin yalnız

texniki proses olmadığını, həmçinin xüsusi yaradıcılıq, qabiliyyət və istedad tələb edən kompleks bir iş olduğunu ortaya qoymuş oldu.

Dissertasiya işinin **"Nəticə"** hissəsində tədqiqat boyu aparılan araşdırmalarda əldə olunan elmi-nəzəri qənaətlər aşağıdakı qaydada ümumiləşdirilmişdir:

- Nizami Gəncəvi yaradıcılığı orta əsrlər türk poeziyasında tərcümə ənənəsinin inkişafına və yeni tərcümə nümunələrinin yaranmasına güclü təsir göstərmiş, şairin əsərləri bu istiqamətdə əsas ədəbi qaynaqlardan birinə çevrilmişdir;
- Orta çağlarda tərcümə prosesi müasir dövrümüzdə tərcümə anlayışının kəsb etdiyi mahiyyətdən fərqli olaraq sərbəst və müəyyən mənada müstəqil yaradıcılıq xarakteri daşımış, mütərcimlər orijinal mətni ədəbi zövqlərinə, bilik dairələrinə, yaşadıqları dövrün sosial şərtlərinə və ən nəhayət, lokal milli dəyərlərə uyğun şəkildə dəyişdirərək onu yeni məzmunda təqdim etmişlər. Məhz bu səbəbdən də eyni bir əsərin ayrı-ayrı zamanlarda, müxtəlif coğrafiyalarda yaşamış müəlliflər tərəfindən həyata keçirilmiş tərcümələrində fərqlər müşahidə edilir;
- XIV-XV yüzilliklərdə başqa dillərdəki əsərlərin, xüsusilə epik poeziya nümunələrinin türk dillərinə tərcümələri dövrün ictimai-siyasi şərtlərinin, sosial həyatda yaranmış təbəddülatların diktəsi idi. Eyni zamanda, bu tərcümələr cəmiyyətdə türkçəyə artan diqqət və qayğıdan yaranmış ana dilində yazıb-yaratmaq ehtiyacının təzahür şəkillərindən biri idi. Bütün bunlar isə türkdilli ədəbiyyatın, xüsusilə də poeziyanın inkişafında mühüm rol oynamışdır;
- Şərq xalqları ədəbiyyatlarında bütün dövrlərdə diqqət mərkəzində olan Nizami Gəncəvi "Xəmsə"si türk dillərinə tərcümə edilən əsərlər içərisində də ən çox müraciət olunan ədəbi nümunələrdəndir;
- "Xəmsə"yə daxil olan əsərlər, xüsusilə "Xosrov və Şirin" məsnəvisi türk xalqları ədəbiyyatında geniş yayılaraq süjet xəttinin inkişafı və ideya baxımından müəyyən məqamlarda fərqlənən zəngin ədəbi əsərlər qalereyasının yaranmasına səbəb olmuşdur;
- Nizami Gəncəvinin "Xosrov və Şirin" dastanının türk dilinə ilk tərcüməçilərindən olan Fəxrəddin Yaqub ibn Məhəmməd Fəxrinin

bioqrafiyası və yaradıcılığı Azərbaycan, Türkiyə və Rusiya ədəbiyyatşünaslığında sistemli və kompleks şəkildə tədqiq olunmamış, mövcud araşdırmalar əsasən epizodik xarakter daşımışdır;

- Fəxri dövrünün sayılıb-seçilən şairlərindən olmuş, Aydınoğulları sarayında yüksək istedada və nüfuza malik sənətkar kimi qiymətləndirilmiş və İsa bəyin tapşırığı ilə sözügedən tərcüməni qələmə almışdır;
- Uzun əsrlər haqqında bilgi olmayan tərcümənin əlyazmasının tapılması və elmi ictimaiyyətə təqdim olunması, xüsusilə, alman alimi Barbara Flemmingin bu sahədəki xidmətləri əsərin elmi-tarixi əhəmiyyətini üzə çıxartmış, Nizami Gəncəvi irsinin türk ədəbiyyatına təsirinin öyrənilməsi baxımından yeni bir mərhələnin əsasını qoymuşdur;
- Fəxrinin "Xosrov və Şirin" tərcüməsi XIV əsr türk ədəbi mühitinin tərcüməçilik ənənələri tarixində əhəmiyyətli yer tutur və o, klassik Şərq poeziyası ilə türk ədəbiyyatı arasında körpü rolu oynayan əsərlər sırasında qiymətli ədəbi örnəklərdən biridir.
- Fəxrinin tərcümə əsəri ilə Xarəzmli Qütb və Yusif Sinan Şeyxi tərəfindən edilmiş tərcümələr arasında oxşar cəhətlər olsa da, onlar müəllif yanaşması baxımından fərqlidirlər;
- Fəxri Nizami Gəncəvi poemasının əsas məzmununu tərcümədə əks etdirə bilmişdir;
- Fəxri orijinal mətnin ideya-məzmun xüsusiyyətlərini qorumaqla yanaşı, ona milli və fərdi poetik çalarlar qatmışdır. Odur ki, şairin tərcüməsi yalnız dil baxımından deyil, həm də bədii-estetik baxımdan əhəmiyyətli bir nümunədir;
- Tərcümə zamanı mütərcim geniş yaradıcılıq axtarışları aparmış, əsas mətnlə yanaşı, əlavə bədii və tarixi materiallardan, məsələn, Əbülqasim Firdovsinin "Şahnamə" əsərindən, folklor örnəklərindən istifadə etmişdir. Bu səbəbdən də tərcümə əsərdə orijinalda olmayan ayrı-ayrı beytlər, parçalar və hətta fəsillər mövcuddur;
- Tərcümə zamanı Nizaminin yüksək poetik sənətkarlıqla qələmə alınmış misraları bəzən dəqiqliyi ilə verilmiş, bəzən isə məzmun saxlanılmaqla müəyyən ifadə dəyişikliyinə uğramışdır.

Tərcüməçi türk dilində ifadə etməyə çətinlik çəkdiyi və məzmunun bütövlüyünə xələl gətirməyən bəzi misraları isə ixtisar etmişdir;

- Tərcüməçi şair zəngin söz ehtiyatına, bədii fikrin yüksək ifadə imkanlarına, poetik istedada, geniş dünyagörüşünə sahib olmuş və Şərq poetika elminin incəliklərinə, klassik poeziya ənənələrinə dərindən yiyələnmişdir;
- Fəxrinin "Xosrov və Şirin" tərcüməsi həm dövrün tərcümə ənənəsini əks etdirən qiymətli nümunə, həm də türkdilli klassik poeziyanın inkişafında mühüm mərhələ kimi dəyərləndirilə bilər;
- Tərcümənin böyük bir coğrafiyada yayılması və Nizami irsinin türk xalqları arasında geniş şəkildə tanınmasında özünəməxsus rol oynaması onun türk ədəbi dili və mədəniyyəti üçün əhəmiyyətini daha da artırır.

Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır:

1. Əliyeva, S.Ə. Fəxrəddin Yaqub ibn Məhəmməd Fəxrinin "Xosrov və Şirin" tərcüməsində Nizami Gəncəvi // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş Gənc tədqiqatçıların I Respublika elmi-praktik konfransı, – Bakı: – 20 aprel, – 2018, – s. 135-136.

2. Əliyeva, S.Ə. Fəxrəddin Yaqub ibn Fəxrinin "Xosrov və Şirin" tərcüməsi // – Bakı: Müqayisəli Ədəbiyyatşünaslıq, – 2019. №1, – s. 163-167.

3. Əliyeva, S.Ə. Əlişir Nəvai və Fəxrinin əsərlərinin müqayisəli təhlili // – Bakı: Müqayisəli ədəbiyyatşünaslıq, – 2020. №1, – s. 128-135.

4. Əliyeva, S.Ə. Fəxrəddin Yaqub ibn Məhəmməd Fəxrinin "Xosrov və Şirin" tərcüməsində Firdovsinin "Şahnamə"sindən iqtibaslar // – Bakı: Müqayisəli Ədəbiyyatşünaslıq, – 2022. №2, – s. 64-71.

5. Əliyeva, S.Ə. Nizami Gəncəvinin "Xosrov və Şirin" əsəri Fəxrəddin Yaqub ibn Məhəmməd Fəxrinin tərcüməsində

(müqayisəli təhlil əsasında) // – Bakı: Filologiya və sənətşünaslıq, – 2023 №1, – s. 187-193.

6. Aliyeva, S.A. Fahri ve Şeyhinin “Hüsrev ü Şirin" çevirilerinin karşılaştırılması // Ege Üniversitesi Kongreleri, 2. Uluslararası Ege Sosyal ve Beşeri Bilimler Kongresi, – İzmir: – 12-13 June, – 2023, – s. 653-658.

7. Əliyeva, S.Ə. Fəxrinin “Xosrov və Şirin” əlyazması Barbara Flemmingin tədqiqatlarında // Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə “Əlyazma Kitabı Azərbaycan-Türkiyə Elmi-mədəni Əlaqələr Kontekstində” Beynəlxalq Elmi-Nəzəri Konfrans, Füzuli adına Əlyazmalar İnstitutu, – Bakı: – 24 oktyabr, – 2023, – s. 126-131.

8. Əliyeva, S.Ə. Fəxrinin “Xosrov və Şirin” tərcüməsini fərqləndirən cizgilər // Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Ziya Musa oğlu Bünyadovun xatirəsinə həsr olunmuş “Qədim və müasir Şərq: mənbələr, araşdırmalar və gələcək inkişaf perspektivləri” (“Ziya Bünyadov qiraətləri”) mövzusunda Beynəlxalq Elmi Konfrans, – Bakı: – 20-21 dekabr, – 2023, – s. 212.

9. Əliyeva, S.Ə. Qütb ilə Fəxrinin “Xosrov və Şirin” tərcümələrinin müqayisəli təhlili // Türkiye: Doğu esintileri A jurnal of İranology Studies, Atatürk Universitesi yayınları, – 2024. sayı 21, – s. 1-7.

10. Əliyeva, S.Ə. Nizami Gəncəvinin Xosrov və Şirin əsərinin XIV-XV əsr türk tərcümələri // “Adabıy ta’lım metodologıyası: Xalqaro tajrıba va ılmıy hamkorlık” mavzusidagi Professor Hamidulla Boltaboyev tavalludining 70 yilligiga bag‘ishlangan xalqaro ilmiy-nazariy anjuman materialları, – Toshkent: Mashhur press, – 2024. – s. 431-435.

11. Aliyeva, S.A. The first “Khosrov and Shirin” in Anatolia // Ases X. International Social Sciences Congressin, – Turkey, Niğde: – may 02-04, – 2025, – s. 1060-1061.

12. Əliyeva, S.Ə. Fəxrinin “Xosrov və Şirin” tərcüməsi Azərbaycan, rus və türk ədəbiyyatşünaslığında // Humanitar və İctimai elmlər Yeni Tarixi Mərhələ müstəvisində II Respublika elmi kofransının materialları, – Bakı: Elm, – 2025. – s. 103-107.

13. Əliyeva, S.Ə. Türk klassik poeziyasında tərcümə anlayışı və Nizaminin "Xosrov və Şirin" əsərinin türk tərcümə ədəbiyyatına təsiri // – Bakı: Müqayisəli Ədəbiyyatşünaslıq, –2025. c.2. sayı 2, – s. 88-94.

14. Aliyeva, S.A. Nizami Gencevinin "Husrev u Şirin" mesnevisinin türkçeye çevrilmesini şartlandıran etkenler // Uluslararası Selçuk Türkiyat Lisansüstü Öğrenci Sempozyumu, – Konya: – 7-9 Mayıs, – 2026, – s. 192-193.

15. Aliyeva, S.A. Fahri'nin "Hüsrev ü Şirin" tercümesinde tarihi-edebi kaynaklara ve halk edebiyatına başvurusu // Söylem 5. Uluslararası Filoloji Sempozyumu, – Süleyman Demirel Üniversitesi, – Isparta: – 7-9 Mayıs, – 2026, – s. 298-299.

16. Aliyeva, S.A. Fahri'nin "Hüsrev ü Şirin" tercümesinde tarihi-edebi kaynaklara ve halk edebiyatına başvurusu // Söylem 5. Uluslararası Filoloji Sempozyumu, – Süleyman Demirel Üniversitesi, – Isparta: – 7-9 Mayıs, – 2026, – s. 1350-1360.

17. Aliyeva, S.A. Anadolu Beylikleri Döneminde Aydınoğullarının Siyasi, Kültürel, Edebî Ortamı ve Fahrî // Türkiye: Doğu esintileri A jurnal of İranology Studies, Atatürk Universitesi yayınları, – 2026. sayı 25, – s. 38-47.



Dissertasiyanın müdafiəsi 13 noyabr 2026-cı il tarixində saat 11⁰⁰ Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.05 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1073. Bakı ş., Hüseyn Cavid prospekti 117, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elekton Akt zalı.

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 09 oktyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.10.2026.
Kağızın formatı: A5
Həcm: 41730
Tiraj: 100 nüsxə